# Vladimir Putindən inamlı qələbə

Rusiya Federasiyasında 3 gün davam etmiş prezident seçkiləri başa çatıb. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, səslərin hamısı hesablandıqdan sonra Vladimir Putin 87,28 faiz səslə öndədir. Kommunistlərin namizədi Nikolay Xaritonov ikinci (4,31 faiz), "Yeni adamlar" partiyasının üzvü Vladislav Davankov (3,85 faiz) üçüncü, liberal demokrat Leonid Slutski 3,20 faiz səslə sonuncu yerdə qərarlaşıb.




Mərkəzi Seçki Komissiyasının sədri Ella Pamfilova bildirib ki, Rusiyada prezident seçkilərinin yekun nəticələri martın 21-də MSK-nın iclasından sonra açıqlanacaq. Seçicilərin fəallığı 77,44 faiz təşkil edib. Bu, müasir Rusiya tarixində rekord göstəricidir.

Vladimir Putinin prezident seçkilərində qələbəsi güclü və inamlı oldu. Bunu Federasiya Şurasının spikeri Valentina Matvienko deyib: "Seçkilər böyük ləyaqətlə keçdi və keçirildi. Seçkilərin əsas nəticəsi ondan ibarətdir ki, Rusiyanın müasir tarixində görünməmiş yüksək fəallıqla Vladimir Vladimiroviç Putin güclü inamlı qələbə qazandı və Rusiya vətəndaşlarından öz kursunu davam etdirmək üçün həqiqətən legitim mandat aldı".

Matvienko əlavə edib ki, seçkilərdən sonra Putin haqqında milli lider kimi danışmaq olar. O, seçkilərin şəffaf, açıq və demokratik keçirildiyini vurğulayıb. Spiker qeyd edib ki, "bir çox başqa dövlətlərdən" fərqli olaraq, Rusiyada seçkilər birbaşa keçirilir və hər bir vətəndaşın səsi vacib olur.

"Vladimir Putinin Rusiyada keçirilən prezident seçkilərində qələbəsi dövlət başçısına və onun seçdiyi kursa böyük inamın təzahürüdür". Bu fikirləri Putinin seçkilərdə etibarlı adamı, xizəksürmə üzrə üçqat olimpiya çempionu Yelena Vyalbe deyib: "Bu nəticə xalqın prezidentimizə olan böyük etimadı ilə izah olunur. Seçicilər birlik nümayiş etdirdi, çox böyük fəallıq oldu. Bu onu göstərir ki, xalq prezidentin müəyyən etdiyi kursa inanır. Bizim bəxtimiz gətirib ki, belə bir prezidentimiz var".

Martın 14-də keçirilən brifinqdə Aİ-nin diplomatik xidmətinin başçısı Cozep Borelin nümayəndəsi Peter Stano bildirib ki, Avropa İttifaqı Rusiya seçkiləri ilə bağlı vahid mövqe formalaşdırmayacaq, hər bir dövlət öz qərarını verəcək.

Seçkilərdən sonra qərargahında çıxış edən Putin seçki məntəqələrinə gələrək səs verən Rusiya vətəndaşlarına təşəkkür edib. Prezident xatırladıb ki, ölkədə hakimiyyətin mənbəyi Rusiya xalqıdır: "Əlbəttə, qarşıda bizi çoxlu problemlər gözləyir. Amma biz birləşəndə - və mən hesab edirəm ki, hamıya aydın oldu ki, bizi kim və necə qorxutmaq, iradəmizi, şüurumuzu boğmaq istəməsindən asılı olmayaraq, bu tarixdə heç kim heç vaxt buna bənzər bir şeyə nail olmayıb. Bu, indi alınmadı və gələcəkdə də alınmayacaq".

O, planların öz həllini tapacağını, hədəflərə çatacağını vurğulayıb. Qərbin reaksiyasını isə Rusiya lideri gözlənilən adlandırıb: "Onların alqışlamasını və ya başqa bir şey etmələrini istəyirdiniz? Onlar bizimlə döyüşürlər, özü də silah vasitəsilə. Onlar bizim inkişafımızı dayandırmağı qarşılarına məqsəd qoyublar."

Putin istisna etməyib ki, nə vaxtsa Rusiya "hazırda Kiyev rejiminin nəzarətində olan ərazilərdə təhlükəsizlik zonası yaratmalı olacaq".

Eyni zamanda o deyib ki, Rusiya sülh danışıqlarının tərəfdarıdır: "Əgər onlar həqiqətən, ciddi şəkildə, uzunmüddətli perspektivdə iki dövlət arasında dinc, mehriban qonşuluq münasibətləri qurmaq istəyirlərsə, bu mümkündür".

Prezidentin andiçmə mərasiminin mayın 7-də keçirilməsi planlaşdırılır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 19 mart, № 61.- S.16.